

# GENDERƏ HƏSSAS BÜDCƏ TƏRTİBATI

## QISA İCMAL

## GENDERƏ HƏSSAS BÜDCƏ TƏRTİBATI NƏDİR?

Genderə həssas büdcə tərtibatı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi, eləcə də insan hüquqlarına əsaslanan yanaşmanın təmin edilməsi məqsədilə qadın və kişilərin, oğlan və qızların müxtəlif ehtiyaclarının büdcə maddələrində nəzərə alınması üçün büdcə gəlir və xərclərinin təhlili və yenidən strukturlaşdırılması üçün istifadə edilən idarəetmə alətidir. O həmçinin diqqəti humanitar sahə, inkişaf və sülh zəncirində toplanan və sərf olunan dövlət resursları üzərində cəmləşdirməklə qadın və kişilər arasında bərabərliyə nail olmaq üçün faydalı strategiyadır.

Genderə həssas büdcə tərtibatı qadınlar və kişilər üçün ayrıca büdcələrin yaradılmasını və benefisiarların gender əsasında bölüşdürülməsini nəzərdə tutmur. Əvəzində büdcə ayrılmalarının dövlətin mövcud gender bərabərliyi siyasəti ilə uyğunluq təşkil etdiyi genderyönümlü büdcə tərtibatı prosesini əhatə edir. Genderə həssas büdcə tərtibatı bizə öhdəliklərin necə icra edildiyini izləməkdə, şəffaflığı artırmaqda və korrupsiya ilə mübarizə aparmaqda yardım edən, effektiv və nəticəyönümlü dövlət idarəetməsini nəzərdə tutan proqramlı büdcə tərtibatının ayrılmaz hissəsidir.

Genderə həssas büdcə tərtibatı mahiyyət etibarilə genderin büdcə prosesinə tətbiqi deməkdir. Bura büdcələrin bütün qadın və kişilərə təsirinin qiymətləndirilməsi, təhlili və bunların gender

**Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilib. Nəşrin məzmununa görə yalnız NIRAS məsuliyyət daşıyır və məzmun Avropa İttifaqının mövqeyini əks etdirməyə bilər.**

## Aİ GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATLARA DƏSTƏK XİDMƏTİ NƏDİR?

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti[1] tələb əsasında Şərq Tərəfdaşlığı ölkələrindəki hökumətlərə və Aİ nümayəndəliklərinə[2] qadın və kişilər üçün effektiv nəticələrin təmin edilməsi məqsədilə gender aspektlərini siyasətlərin formalaşdırılması prosesinə tətbiq etməkdə və islahatların icrasında yardım edir

## HƏDƏF AUDİTORİYA

Bu icmal Şərq Tərəfdaşlığı ölkələrində və onların sərhədlərindən kənarda insanlara faydalı olacaq hüquqi akt, siyasət, proqram və layihələri hazırlayan hər kəs (dövlət müəssisələrinin əməkdaşları, Aİ nümayəndəlikləri, vətəndaş cəmiyyəti təşkilatları və başqa beynəlxalq inkişaf tərəfdaşları) üçün yararlı ola bilər. O həmçinin bu ölkələrdə qanunvericilik bazasını, siyasətin və layihələrin formalaşdırılması sahələrini araşdıran və/və ya bunları işıqlandıran KİV nümayəndələri, elmi dairələrin nümayəndələri və tədqiqatçılar üçün faydalı ola bilər.

[1] Belarusda İslahatlara Dəstək Xidməti yalnız Aİ nümayəndəliyinə yardım təmin edir.
[2] Şərq tərəfdaşlığı Aİ, ona üzv dövlətlər və altı Şərqi Avropa tərəfdaş ölkəsinin cəlb olunduğu birgə təşəbbüsdür: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

**Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti**

İcraçı

NIRAS

bərabərsizliklərinin və fərqlərinin azaldılması üçün müvafiq siyasətlərin təhlil edilməsi və uyğunlaşdırılması ilə dəstəklənməsi daxildir. Bu cür büdcə tərtibatında hökumətlərin dövlət resurslarından benefisiarların - qadın və kişilərin, oğlan və qızların - ehtiyaclarına uyğun məqsədyönlü istifadə baxımından hesabatlılığı təşviq edilir və bütün dövlət siyasətlərində beynəlxalq strategiya və milli inkişaf strategiyalarına müvafiq gender aspekti tətbiq edilir.

Sadə dillə desək, Aİ Gender üzrə III Fəaliyyət Planının bir hissəsi kimi genderə həssas büdcə tərtibatını təşviq edir:

- Maliyyə planlaşdırması və büdcə tərtibatında hesabatlılıq, səmərəlilik, şəffaflıq və ədalətliliyin təbliğ edilməsi.
- Korrupsiya ilə mübarizə və hər bir investisiyadan daha yüksək dəyərin əldə edilməsinin təmin olunması.
- Büdcə tərtibatında genderyönümlü iştirakın artırılması, məsələn, insan hüquqlarına əsaslanan yanaşmanın bir hissəsi kimi büdcələrin hazırlanmasında qadın və kişilərin bərabər iştiraka cəlb edilməsi üçün addımların atılması ilə.
- Büdcə vəsaitlərinin qadınlar və kişilər, qızlar və oğlanlar arasında onların fərqli ehtiyac və maraqları nəzərə alınmaqla bölüşdürülməsinin təmin edilməsi.
- Gender fərqlərinin azaldılması, gender bərabərliyinin, qadınların hüquqlarının irəli çəkilməsi, eləcə də iqtisadi inkişafın yüksəldilməsi.

Genderin milli, regional və yerli büdcələrə tətbiqi üçün bu təhlil bütün səviyyələrdə aparılmalıdır. Genderə həssas büdcə alətindən həmçinin özəl sektor investisiyaları və ya layihə büdcələri üçün istifadə edilə bilər.

Vətəndaş cəmiyyətinin büdcə prosesinin bütün mərhələlərində fəal iştirakı genderə həssas büdcə tərtibatının təbliği baxımından vacibdir. Vətəndaş cəmiyyəti təşkilatları büdcələrin müstəqil gender təhlilini təmin edə, büdcə planlaşdırma mərhələsində təkliflər verə, büdcənin qəbulu mərhələsində ictimai dinləmələr təşkil edə, büdcənin icrasının monitorinqində və qiymətləndirilməsində nəzarətçi rolu oynaya, insanyönümlü, ədalətli, səmərəli və şəffaf büdcələrin təbliği üçün geniş ictimaiyyət arasında məlumat yaya bilər.

Eyni zamanda yaxşı hazırlanmış, iştirakçılığa əsaslanan hüquqi büdcə prosesi mexanizmləri formalaşdırılmalıdır və vətəndaş cəmiyyəti maliyyə qərarlarına təsir etmək üçün ehtiyac duyduğu bilik və alətlərlə təmin edilməlidir.

## GENDERƏ HƏSSAS BÜDCƏ TƏRTİBATI NƏ ÜÇÜN VACİBDİR?

Avropa Komissiyası Avropa İttifaqının dünyanı gender bərabərliyini təmin etməyə çağıran 2021–2025-ci illər üçün Gender üzrə fəaliyyət planını (GAP III) qəbul edən zaman dövlət maliyyə idarəetməsini dəstəkləyən proqramlar vasitəsilə genderə həssas büdcə tərtibatını inkişaf etdirməyi vəd edirdi. Plan genderə həssaslıq modulunun daxil edilməsi üçün yeni dövlət xərcləri və maliyyə hesabatlılığı (PEFA) qiymətləndirmə hesabatlarının hazırlanmasını tələb edir.

Buna görə də genderə həssas büdcə tərtibatı DİM indikatorunun (5.c.1. 2) bir hissəsini təşkil edir. Bu indikator *“gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi məqsədilə dövlət maliyyə ayırmalarının həyata keçirilməsi və izlənməsi üçün sistemlərə malik ölkələrin proporsiyasını”* ölçür. Gender bərabərliyi üzrə siyasət tələbləri və hüquqi tələblər onların icrası üçün resursların ayrılması ilə əlaqələndirilir.

Genderə həssas büdcə tərtibatı gender bərabərliyinin inkişaf etdirilməsinə, konkret istehlakçılara ünvanlanan dövlət xidmətlərinin keyfiyyətinin təkmilləşdirilməsinə yardım edən güclü idarəetmə alətidir. O, həmçinin yoxsulluğun azadılmasına, resurslardan daha səmərəli istifadə edilməsinə və hədəf əhali qruplarının rifahına dəstək verir. Nəticədə o daha dayanıqlı və inklüziv inkişafa gətirib çıxarır.

## GENDERƏ HƏSSAS BÜDCƏ TƏRTİBATINI NECƏ İCRA EDİRİK?

**Genderə həssas büdcə tərtibatının** icrası qanunvericilik və büdcə tərtibatı sahəsində bir sıra fəaliyyətlər tələb edir. Əsas komponent gender üzrə qruplaşdırılmış məlumatlara malik olmaq, onları təmin etmək və ya hazırlanması üçün tərəfdaşlara dəstək verməkdir. Əsas ilkin şərtlərdən biri normativ-hüquqi baza, genderə həssas büdcə tərtibatı üçün milli metodologiya, eləcə də gender əsaslı büdcə təhlili üçün göstəricilər sisteminin hazırlanmasıdır. Büdcə qərarları hər zaman siyasi xarakter daşıdığından gender bərabərliyinin dövlət maliyyə idarəetməsinə inteqrasiya edilməsi üçün siyasi iradənin səfərbər edilməsi vacib əhəmiyyət daşıyır.

Genderə həssas büdcə tərtibatının uğurla icra edilməsinə **şərait yaradan əsas amillər** aşağıdakıların mövcudluğunu şərtləndirir:

- Gender bərabərliyinin inkişaf etdirilməsi üçün xüsusi gender bərabərliyi siyasəti və milli institusional mexanizm.
- Gender məsələlərinin büdcə proseslərinə daxil edilməsi üçün siyasi iradə.
- Büdcə qərarlarının konkret şəraitə daha yaxşı uyğunlaşdırılması, eləcə də gender bərabərsizliklərinin aradan qaldırılması üçün lazım olan dəlil bazası təmin edən genderə həssas statistik məlumatlar.
- Gender bərabərliyi ilə əlaqədar məsələlər haqqında məlumatlılığın artırılması, xüsusi ilə də gender bərabərliyi sahəsində milli siyasətin daha yaxşı başa düşülməsinin təmin edilməsi.
- Kişilərin və qadınların büdcə tərtibatında bərabər iştirakı üçün imkanlar.

Genderə həssas büdcə tərtibatının icrası qadın və kişilərin gender üçün xarakterik ehtiyaclarını, eləcə də maliyyə siyasət və praktikalarının qadın və kişilər üzərindəki fərqli təsirlərini nəzərə alan dövlət maliyyə idarəetmə qurumlarının, sistem və proseslərinin mövcud olmasını tələb edir.

İdeal hallarda genderə həssas büdcə tərtibatı büdcənin planlaşdırılmasından, izlənməsinə, monitorinqinə, genderə həssas maliyyə siyasətlərinin səmərəlilik və effektivliyinin, eləcə də qadın və kişilər üzərində təsirinin qiymətləndirilməsinə qədər büdcə dövrəsini bütövlükdə əhatə etməlidir.

Genderə həssas büdcə tərtibatı **Büdcə planlaşdırma mərhələsində** aşağıdakıları əhatə edir:

- Qadınlara, kişilərə və bu kateqoriyalar daxilindəki altqruplara xidmətlərin göstərilməsi daxil olmaqla, büdcə siyasəti təkliflərinin gender bərabərliyinə təsirinin qiymətləndirilməsi.
- Büdcə təşkilatlarının gender təsirlərini büdcə sənədlərində nəzərə almasını tələb edən büdcə sirkulyarının hazırlanması.
- Xidmətlərin göstərilməsi haqqında cinsiyyətə görə qruplaşdırılmış məlumatların daxil olduğu büdcə sənədlərinin hazırlanması.
- Xərclərin gender təsirlərini nəzərə alan büdcə təkliflərinin, gəlir siyasətlərinin və proqramlarının qanunvericilik yoxlaması.

Genderə həssas büdcə tərtibatı büdcənin icrası mərhələsində aşağıdakıları əhatə edir:

- Birbaşa qadınlar və kişilər arasında bərabər hüquq və imkanların təmin edilməsinə yönəlmiş proqramlara sərf edilən xərclər (birbaşa ayrılmalar).
- Konkret kişi və qadın altqruplarının ehtiyaclarının nəzərə alındığı genderə həssas dövlət xidmətlərinə vəsaitin sərf edilməsi (birbaşa maliyyələşdirmə).
- Sektorlar üzrə gender yanaşmasının inteqrasiya edildiyi proqramlara vəsaitin sərf edilməsi (dolayı maliyyələşdirmə).

Belə xərclərin **izlənilməsi** qadınların və kişilərin dövlət ayrılmalarından necə yararlandıqlarının, bu ayrılmaların onlara təsirinin fərqləndirilməsi üçün məqsədyönlü və etibarlı metodologiyanın mövcudluğunu tələb edir.

**Uçot və hesabat mərhələsində** hökumətin büdcə siyasətlərinin icrasına dair hesabatına gender bərabərliyi və genderə həssas dövlət xidmətləri üçün büdcə ayrılmalarının bildirilməsi daxil olmalıdır. Büdcə dövrəsinin yekun mərhələsində – **xarici yoxlama və audit** – dövlət büdcə vəsaitləri təhlil edilməli, gələcək fəaliyyətlərin bu məlumatlar əsasında yönləndirilməsi üçün tövsiyələr verilməlidir.[3]

Təcrübədə siyasi şəraitdən, əhatə dairəsindən və büdcə tərtibatının mərhələsindən asılı olaraq genderə həssas büdcə tərtibatı təşəbbüsü müxtəlif məsələləri önə çəkə, müxtəlif formalarda ola bilər. Belə təşəbbüslər:

- Büdcə ilə birlikdə təqdim olunan ayrıca sənədin hazırlanmasını nəzərdə tuta bilər.
- Şöbə proseslərinə və proqram təhlilinə həmişəlik inteqrasiya edilə bilər.
- Qeyr-hökumət sektorunu təmsil edən maraqlı tərəflərin hazırladıqları formal büdcə təklifləri və ya ayrıca sənədlər ola bilər.

## QABAQCIL TƏCRÜBƏLƏR

**Avstriya** genderə həssas büdcə tərtibatını konstitusiyasına inteqrasiya etmiş üç ölkədən biridir. Genderə həssas büdcə tərtibatı genderin hökumət siyasətlərinə

[3] PEFA Katibliyi, *Genderə həssas dövlət maliyyə idarəetməsinin qiymətləndirilməsi üçün yardımçı mexanizm*. Vaşinqton, yanvar 2020, https://www.pefa.org/gender

tətbiqi, birmənalı cavabdehliklərin müəyyən edilməsi, hökumətlərin gender siyasəti öhdəlikləri ilə əlaqədar hesabatlılığı üçün vacib alətdir.

Federal nazirliklər büdcə sənədlərində qadınlarla kişilər arasında bərabərliyi birmənalı hədəf olaraq götürməlidirlər. Bu, Federal büdcə haqqında qanuna uyğun olaraq, gender məqsədlərinin, tədbirlərinin və göstəricilərinin strategiya hesabatlarına, federal büdcəyə inteqrasiya edilməsi deməkdir.

**Ukrayna** 2003-cü ildən bəri bir sıra genderə həssas büdcə tərtibatı təşəbbüsləri göstərmişdir. Ukraynada 2014-2020-ci illər arasında İsveç Beynəlxalq İnkişaf Əməkdaşlığı Agentliyi (SIDA) tərəfindən dəstəklənən və NIRAS tərəfindən icra edilən genderə həssas büdcə tərtibatı layihəsi ilə əhəmiyyətli irəliləyişə nail olunmuşdur. Layihənin əsas benefisiarı olan Ukrayna Maliyyə Nazirliyi həm dövlət səviyyəsində, həm də lokal səviyyələrdə genderə həssas yanaşmanın büdcə prosesinin bütün mərhələlərinə tətbiqinə başlamışdır. Nazirlik gender aspektini büdcə prosesini tənzimləyən bütün qaydalara tətbiq etmişdir. Proses büdcə layihəsinin Büdcə bəyannaməsinin, eləcə də yerli büdcə proqnozunun hazırlanmasından və nəzərdən keçirilməsindən, büdcələrin tərtibatına, Ukraynanın dövlət büdcəsi haqqında qanunun qəbul edilməsinə qədər tam spektri əhatə edir. Bundan əlavə, o, büdcələrin icrasını, büdcəni icrası haqqında hesabatın hazırlanmasını, nəzərdən keçirilməsini və qərarın bunlar əsasında verilməsini nəzərdə tutur.

**Azərbaycan** Maliyyə Nazirliyi dövlət maliyyə idarəetmə islahatlarının icrasına nəticələrə əsaslanan büdcə tərtibatını daxil etmişdir. Bu büdcə islahatı genderə həssas büdcə tərtibatının təqdim edilməsi üçün fürsət yaradır.

**Gürcüstan** hökumətinin "2018–2020-ci illərdə İnsan hüquqlarının qorunması üzrə hökumət fəaliyyət planının" təsdiqlənməsi haqqında 182 saylı, 17 aprel 2018-ci il tarixli qətnaməsində büdcə tərtibatı prosesində, qanun layihələrinin gender təhlilində, Gürcüstanının 2019-2020-ci il üçün dövlət büdcəsində gender bərabərliyi prinsipləri, eləcə də tövsiyələrin hazırlanması və onların yekun sənədlərə inteqrasiya edilməsi önə çəkilir. Məqsəd gender bərabərliyi prinsiplərini dövlət siyasətinə inteqrasiya etməkdir.

**Moldova Respublikasında** qərar qəbuluna görə məsul şəxslərin gender məsələlərinə həssaslığının artırılması, onların büdcə prosesində genderə həssas büdcə tərtibatının təqdim edilməsinə hazırlanması məqsədilə Maliyyə Nazirliyi, Təhsil və Tədqiqat Nazirliyi və Regional Xəzinədarlıqlar tərəfindən bu mövzuda silsilə təlimlər təşkil edilib.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişafa Yardım Komitəsi (**OECD DAC**) genderə həssas büdcə tərtibatı sahəsində qabaqcıl təcrübələri təhlil edib. Komitə sənədi İƏİT-yə üzv ölkələrdə genderə həssas büdcə tərtibatının uğurla icra edilməsi və İƏİT-in genderə həssas büdcənin hazırlanması və icrası sahəsində ölkələrlə apardığı iş çərçivəsində əsas ortaq xüsusiyyətləri təqdim edir.

.

## FAYDALI KEÇİDLƏR

- AİGender Bərabərliyi naminə İslahatlara Dəstək Xidmətinin layihə səhifəsi
- Gender bərabərliyi kitabxanası
- Aİ-nin Şərq qonşuları veb-saytı

GENDER BƏRABƏRLİYİ KİTABXANASINA BAŞ ÇƏKİN

© Avropa İttifaqı 2023